**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№349/2** **19 oktyabr 2022-ci il**

**Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə təlimat haqqında**

2021-ci il 16 sentyabr tarixində keçirilmiş "Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr" beynəlxalq elmi-praktik konfransın tövsiyələrinin 2.2-ci "Rəqəmsal iqtisadiyyata dair" bəndinin 6-cı "Rəqəmsal iqtisadiyyat şəraitində nəzarətin aparılmasına dair metodik bazanın hazırlanması" altbəndinə və Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 2.7-ci "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair metodik vəsaitin hazırlanması" bəndinin icrası məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov, həmin idarənin rəis müavini B.Orucov və Keyfiyyətə nəzarət şöbəsinin müdiri F.Axundova tərəfindən hazırlanmış "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə" təlimatın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə" təlimat bəyənilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə" təlimatın auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Palata sədrinin müşaviri F.Qarayevə, Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədova) və Kadr hazırlığı idarəsinə (A.Seyidəliyeva) tapşırılsın ki, "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə" təlimata dair cari ilin 4-cü rübü ərzində vebinarın keçirilməsi təmin edilsin.
4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bu qərarın və hazırlanmış təlimatın mətnlərinin Palatanın internet səhifəsində və auditorun şəxsi kabineti sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**